# Baş Prokurorluğun nümayəndə heyəti Horadizdəki "Qəhrəmanlar parkı"nda şəhidlərimizin xatirəsini yad edib

Xəbər verdiyimiz kimi, baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti sentyabrın 26-da və 27-də Kəlbəcər və Qubadlı hərbi prokurorluqlarının yeni inzibati binalarının açılış mərasimində iştirak edib.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 27-də - Anım Günündə nümayəndə heyəti Füzuli rayonunun Horadiz şəhərindəki "Qəhrəmanlar parkı"nda şəhidlərin xatirəsinə yaradılmış abidəni ziyarət edib. Ziyarət zamanı şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

---

Azərbaycan.- 2021.- 29 sentyabr.- S.3.